# mr. Latex®

## İki komponentli, sement əsaslı su izolyasiya materialı

Məhsul kodu: A Komp: 30.25.002
B Komp.: 30.10.003




### Məhsul haqqında

**mr. Latex®** polimer əsaslı iki komponentli yarı elastik su izolyasiya materialdır.

### İstifadə sahələri

- Daxili və xarici yerlərdə, şaquli və üfüqi səthlərdə
- Bənd divarlarında
- Su anbarlarında
- Tualet, hamam, mətbəx və balkon kimi binanın bütün nəmli yerlərdə
- Üzgüçülük hovuzlarında və bəzək hovuzlarında
- Soyuq hava anbarlarının divar və döşəmələrinin örtülməsində
- Terraslarda (üzəri örtülmək şərti ilə)
- Təməl və istinad divarlarında

### Texniki göstəriciləri

| Materialın tərkibimr. Latex® Komponent A mr. Latex® Komponent B | Xüsusi sement, mineral dolğular, polimer, maye polimer dispersiyalı |
|---|---|
| Rəngi | Tünd sement rəngi |
| Tətbiq ediləcək səthin istiliyi | +5°C /+25°C |
| Yapışma müqaviməti | ≥1,50 N/mm² |
| Qarışığın istifadə müddəti | 2 saat |
| Təzyiqli suya davamlılığı | 2 bar (müsbət) |
| İstifadəyə verilmə müddəti | 1 həftə |
| Üzərinin örtülməsi | 3 gün (suvaq və ya keramika) |

Yuxarıdakı qiymətlər +23°C və 50% nəmlik üçün verilmişdir. Yüksək temperatur müddəti qısaldır, aşağı temperatur müddəti uzadır.

### Üstünlükləri

- Asan hazırlanır və tətbiq olunur
- Elastikdir
- Fırça, mala və ya püskürtmə aləti ilə tətbiq oluna bilər
- İşləmə müddəti uzundur
- Su keçirməyən xüsusiyyəti olsa da buxar keçirmə xüsusiyyətinə malikdir
- Büzülməz, çatlamaz
- Çox yüksək yapışma müqavimətinə sahibdir
- Donma-ərimə prosesinə davamlıdır

### İstifadə təlimatı

Səthin hazırlanması;
Tətbiq sahəsinin sağlam, quru, təmiz, tozsuz və daşıyıcı olmasınna diqqət edilməlidir. Səth yapışmanı zəiflədəcək bütün yağ və parafin qalıqlarından təmizlənməli, səthdə artıq qırıntılar olmamalı və səth nəmə doymuş olmalıdır. Hamar olmayan səthlər əvvəlcədən mr.Tamir® ilə təmir edilməlidir. Səth tətbiqdən öncə su ilə isladılmalı, amma su gölü yaradılmamalıdır. 1 qat tətbiq olunduqdan sonra məhsulun rəngi solursa və sürətlə quruma müşahidə olunarsa, sadəcə 1-ci qat üçün hazırlanmış məhlulun üzərinə 1 lt su əlavə oluna bilər. Hazır məhsul daha öncə nəmləndirilmiş səthə 2 və ya 3 qat halında sürtülür. Hər bir qat sürtülmədən öncə altdakı qatın quruması gözlənilir. Qatlar bir-birinə əks istiqamətdə sürtülür.

### Hazırlanması

mr. Latex® qarışığa hazır miqdarlarda qablaşdırılmışdır. Bunlar komponentlər istifadə ediləcəyi yerdə, təmiz qablar içində qarışdırılmalıdır. Toz komponentini mayenin içinə yavaşca əlavə edin və ucunda bir qarışdırma qanadı olan 400-600 dövr/dəq-lik bir mikser ilə astaca qarışdırın. Təxminən 3-5 dəqiqə dincəlməyə qoyulduqdan sonra təkrar 30 saniyə qarışdırılaraq məhsul istifadəyə hazır hala gətirilir. Bir saat müddətində istifadə edə biləcəyiniz

miqdardan çox material qarışdırmayın.

## Qarışdırma nisbəti

İki komponentli su izolyasyon məhsulları üçün 25 kq-lıq toz komponent üçün 10 kq mr Latex®B Komponenti

## Sərfiyyat

| | |
|---|---|
| 1-ci qat | 1,20 kq/m² |
| 2-ci qat | 1,00 kq/m² |
| 3-cü qat | 1,00 kq/m² |

## Alətlərinin təmizlənməsi

Tətbiq edilmədən sonra istifadə edilən alət və ünsürlər deterjanlı isti su ilə təmizlənməlidir. mr. Latex® sərtləşdikdən sonra ancaq mexanik üsullarla səthdən təmizlənə bilər.

## Saxlama şərtləri

Açılmamış orijinal bağlamada (qablaşdırmada), sərin və quru şəraitdə, donmadan qorunaraq saxlanmalıdır.

## Saxlama müddəti

Düzgün saxlama şəraitində, istehsal tarixindən etibarən 1 il müddətində istifadəyə yararlıdır.

## Təhlükəsizlik tədbirləri

Tətbiq əsnasında, təhlükəsizlik qaydalarına uyğun olaraq iş paltarı, qoruyucu əlcək, eynək və maskadan istifadə edilməlidir. Məhlul dəriyə və gözə təmas etdirilməməli, təmas etdikdə isə dərhal bol su və sabunla yuyulmalı, udulması halında təcili olaraq həkimə müraciət olunmalıdır. Material tətbiq olunan sahələrə qida məhsulları qoymaq olmaz. Uşaqların əllərinin çatmayacağı yerlərdə saxlanmalıdır. Daha geniş məlumat üçün Təhlükəsizlik Məlumat Formasına baxılmalıdır.

## Cavabdehlik

Mr.Fix sadəcə məhsulun keyfiyyətinə cavabdehdir, məhsulun harada və necə istifadə ediləcəyi ilə əlaqəli yazılı təkliflərdən kənarçıxmalara xaricindəki və/vəya xətalı istifadələrə görə şirkətimiz məsuliyyət daşımır. Xahiş olunur malı alarkən məhsul kitabcası tələb edin və lazımi dəstək üçün şirkətimizin məsul şəxsləri ilə əlaqə saxlayın.

K-Q TSE-ISO-EN 9000

AZS

**Net: A Komponent : 25 kq ±2%**
**B Komponent : 10 kq ±2%**